Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollegiyası tərəfindən dövlət qeydiyyatına alınıb.
"08 03" 2000-ci il.

Nazir: Sudabə HƏSƏNOVA

№ 1286

Jurnalistlərin Həmkarlar İttifaqının 3-cü (növbədənkənar) qurultayında qəbul edilib.
13 fevral 2000-ci il, Bakı şəhəri.

JuHİ sədri: Azər H.HƏSRƏT

# JURNALİSTLƏRİN HƏMKARLAR İTTİFAQININ

# N İ Z A M N A M Ə S İ

## 1.ÜMUMİ MÜDDƏALAR

1.1.Jurnalistlərin Həmkarlar İttifaqı (bundan sonra JuHİ) kütləvi informasiya vasitələri (bundan sonra KİV) işçilərinin ilk həmkarlar təşkilatlarının sahə prinsipi üzrə könüllü birləşdiyi müstəqil ictimai qeyri-siyasi təşkilatdır.

1.2.JuHİ Azərbaycan Respublikası (bundan sonra AR) Konstitusiyası, "Həmkarlar ittifaqları haqqında" AR qanunu və digər müvafiq qanunvericilik aktları, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Beynəlxalq Əmək Təşkilatının konvensiya və tövsiyələri, habelə AR-nın qoşulduğu digər beynəlxalq hüquq normaları və bu Nizamnamə əsasında fəaliyyət göstərir.

1.3.JuHİ-nin məqsədi KİV işçilərinin əmək, sosial, iqtisadi hüquqlarını və qanuni mənafelərini, həmçinin söz və mətbuat azadlığını qorumaq və inkişaf etdirməkdir.

1.4.JuHİ öz fəaliyyətini azadlıq, müstəqillik, fikir çoxluğu, demokratiya, özünüidarə, siyasi fəaliyyətin və üzvlər arasında ayrıseçkiliyin yolverilməzliyi prinsipləri əsasında qurur.

1.5.JuHİ-nin hüquqi ünvanı: Bakı ş. Xaqani küç. 33

## 2.JuHİ-nin FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

JuHİ öz fəaliyyətini aşağıdakı istiqamətlərdə qurur:

- KİV işçiləri ilə bağlı əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvəricilik aktlarının hazırlanmasında iştirak edir;
- dövlət orqanları qarşısında öz üzvləri adından çıxış edir;
- dövlət orqanlarına, ictimai və digər əlaqədar qurumlara KİV işçilərinin sosial təminat proqramlarının hazırlanması ilə bağlı tövsiyələr verir;
- İlk təşkilatların əlaqələndirilməsini və onların vahid mərkəzdən idarə olunmasını təmin edir;
- öz üzvlərinin əmək, sosial, iqtisadi hüquqlarını və qanuni mənafelərini qoruyur, ifadə və təmsil edir;
- üzvlərinə hüquqi və maddi yardım edir;
- üzvlərinin müəlliflik, intellektual mülkiyyət hüquqlarını müdafiə edir;
- nəşriyyat fəaliyyətini həyata keçirir, qəzet, jurnal və digər KİV təsis edir;
- maliyyə müstəqilliyini təmin etmək məqsədilə kommersiya, kooperativ və b. müəssisə, birlik və təşkilatlar qurur;
- Respublikada fəaliyyət göstərən digər həmkarlar ittifaqları və müvafiq ictimai qurumlarla əlaqələr qurur, işbirliyi edir, KİV işçilərinin beynəlxalq qurumlarla ilə əlaqələr qurur, onların birliklərinə üzv olur, beynəlxalq tədbirlərdə iştirak edir;
- JuHİ-nin məqsəd və vəzifələrindən irəli gələn, AR qanunvericiliyinin, habelə bu Nizamnamənin tələblərinə zidd olmayan digər funksiyaları yerinə yetirir;
- JuHİ qüvvədə olan qanunvericiliyə uyğun olaraq Nizamnamə məqsəd və vəzifələrini gerçəkləşdirmək üçün müxtəlif kütləvi tədbirlər (mitinqlər, tətillər, küçə yürüşləri, nümayişlər və s.) keçirir.

## 3.JuHİ-də ÜZVLÜK

3.1.JuHİ-də üzvlük fərdidir.

3.2.Respublikada çalışan istənilən KİV işçisi (yaradıcı və texniki işçilər) JuHİ-na üzv ola bilər.

3.3.JuHİ-na üzvlük şəxsin ərizəsi əsasında həyata keçirilir. Şəxsin JuHİ-na qəbulu məsələsi ilk həmkarlar təşkilatnin qərarı ilə həll edilir.

3.4.JuHİ üzvlüyünə qəbul edilmiş şəxsə ilk təşkilat tərəfindən vahid formalı üzvlük bileti verilir.

3.5.JuHİ üzvləri əmək haqqının (qonorarın) bir faizi miqdarında aylıq üzvlük haqqı ödəyirlər.

3.6.JuHİ üzvləri irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən (qanunvericiliyin yol verdiyi çərçivədə), əqidəsindən, siyasi partiyalara (qanunvericiliyin yol verdiyi çərçivədə), ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bərabər huquqlara malikdirlər.

### 3.7.JuHİ üzvünün hüquqları:

- JuHİ-nin bütün tədbirlərində iştirak etmək;

- JuHİ-nin fəaliyyətinə dair təkliflər vermək, müzakirələrdə iştirak etmək, orqanların fəaliyyətini tənqid və öz rəyini müdafiə etmək;
- JuHİ-nin seçkili orqanlarına seçmək və seçilmək;
- əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin qorunması üçün JuHİ orqanlarına müraciət etmək;
- JuHİ orqanlarına onların fəaliyyəti ilə bağlı istənilən məsələ barədə sualla, ərizə ilə müraciət etmək və ona cavab almaq;
- qanunvericiliyin və bu Nizamnamənin tələblərindən irəli gələn digər hüquqlar.

**3.8.JuHİ üzvünün vəzifələri:**

- JuHİ Nizamnaməsinə əməl etmək, orqanların işində iştirak etmək, onların Nizamnamə tələblərinə zidd olmayan tapşırıqlarını yerinə yetirmək;
- əmək haqqının (qonorarın) ən azı bir faizi miqdarında üzvlük haqqı ödəmək;
- JuHİ-nin nüfuzunun qayğısına qalmaq, hüquqları pozulan yoldaşları ilə həmrəy olmaq və onları müdafiə etmək;
- qanunvericiliyin və bu Nizamnamənin tələblərindən irəli gələn digər vəzifələr.

3.9.Nizamnamə tələblərini pozan JuHİ üzvlərinə onların qeydiyyatda olduğu ilk təşkilatın yığıncağı tərəfindən, seçkili orqanlarda çalışan üzvlərə isə müvafiq orqan tərəfindən, onların daxili Əsasnamələrinə uyğun olaraq aşağıdakı intizam tədbirləri tətbiq edilir:

- xəbərdarlıq;
- töhmət;
- seçkili orqandan xaric etmə;
- üzvlükdən xaric etmə.

3.10.Barəsində intizam tədbiri tətbiq edilmiş üzv həmin tədbirlə razılaşmadıqda bu haqda Mərkəzi Nəzarət Təftiş Komissiyasına (bundan sonra MNTK) müraciət edə bilər. MNTK müvafiq qərarı təsdiq və ya ləğv edir. MNTK tərəfindən qəbul edilmiş qərar haqda yalnız Ali Məclisə və Qurultaya şikayət verilə bilər.

3.11.Təşkilat üzvünə qarşı intizam tədbirinin tətbiq edildiyi yığıncaqda həmin şəxsin iştirakına və özünü müdafiə üçün çıxış etməsinə təminat verilir. İştirakdan imtina edildikdə qərar onun iştirakı olmadan qəbul edilir.

3.12.Barəsində intizam tədbiri görülmüş JuHİ üzvü bundan nəticə çıxardıqda və öz fəaliyyətində yaxşılığa doğru dönüş etdikdə, intizam tədbiri kimi tətbiq edilmiş xəbərdarlıq elan edildikdən üç, töhmət altı ay kecdıkdən sonra öz qüvvəsini itirir. Seçkili orqandan xaric edilmiş şəxs isə bir il kecdikdən sonra yenidən hər hansı seçkili orqana seçilə bilər.

## 4.JuHİ-nin TƏŞKİLATİ QURULUŞU

4.1.JuHİ AR-nın bütün ərazisində fəaliyyət göstərir.

4.2.JuHİ-nin əsasını KİV redaksiyasında qurulan ilk həmkarlar təşkilatı təşkil edir. İlk həmkarlar təşkilatının qurulması barədə qərar ən azı üç JuHİ üzvünün iştirak etdiyi təsis yığıncagında qəbul edilir.

4.3.İlk həmkarlar təşkilatları Ali Məclis (bundan sonra AM) tərəfindən qəbul edilən "İlk həmkarlar təşkilatlarında iş qaydası haqqında" Əsasnaməyə uyğun fəaliyyət göstərirlər.

4.4.İlk həmkarlar təşkilatlarının rəhbər orqanı Ümumi Yığıncaqdır. Ümumi Yığıncaq ayda bir dəfədən gec olmayaraq keçirilir. İlk həmkarlar təşkilatı üzvlərinin üçdə birinin və ya ilk təşkilat sədrinin təşəbbüsü ilə növbədənkənar Ümumi Yığıncaq keçirilə bilər. Ümumi Yığıncağın səlahiyyətli olması üçün ilk həmkarlar təşkilatı üzvlərinin yarıdan çoxunun iştirakı vacibdir. Ümumi Yığıncaqda ilk həmkarlar təşkilatının fəaliyyəti ilə bağlı qərarlar qəbul edilir, ayrı-ayrı üzvlər barəsində intizam tədbirləri görülür.

4.5.İlk həmkarlar təşkilatına Ümumi Yığıncaq tərəfindən seçilmiş ilk həmkarlar təşkilatı sədri başçılıq edir. O, eyni zamanda ilk həmkarlar təşkilatı ilə JuHİ mərkəzi orqanları arasında əlaqəni təmin edir.

4.6.İlk həmkarlar təşkilatları birbaşa JuHİ mərkəzi orqanlarına tabedirlər və AM tərəfindən qeydə alınırlar.

4.7.İlk həmkarlar təşkilatlarının AM tərəfindən təsdiq edilmiş formada möhür və ştampı vardır. İlk həmkarlar təşkilatlarının işi JuHİ budcəsi hesabına maliyyələşdirilir.

4.8.Səlahiyyətlərinə aşağıdakılar daxildir:

- yeni üzvlər qəbul edir, üzvlükdən xaric edir;
- işə götürənlə işçilər arasında münasibətlərin tənzimlənməsində iştirak edir;
- əmək müqavilələrinin bağlanmasında tərəf kimi çıxış edir;
- əmək müqavilələrinə əməl olunmasına nəzarət edir;
- üzvləri barəsində intizam və həvəsləndirmə tədbirləri tətbiq edir;
- üzvlük haqlarının toplanması və xərclənməsi işini həyata keçirir;
- ilk həmkarlar təşkilatının səlahiyyətlərinə aid olan digər məsələləri həll edir.

## 5.JuHİ-nin RƏHBƏR ORQANLARI

JuHİ-nin rəhbər orqanları Qurultay, Ali Məclis, Sədr, İdarə Heyəti (bundan sonra İH) və Mərkəzi Nəzarət Təftiş Komissiyasından ibarətdir. Bütün seçkili rəhbər orqanların səlahiyyət müddəti iki ildir.

**5.1.Qurultay**

5.1.1.JuHİ-nin ali orqanıdır. İki ildə bir dəfə cağırılır. Zəruri hallarda AM üzvlərinin 2/3-sinin və ya JuHİ üzvlərinin 1/3-nin tələbi ilə növbədənkənar cağırıla bilər.

5.1.2.Nümayəndəlik norması AM tərəfindən müəyyən edilir. Nümayəndələr ilk təşkilatların yığıncaqlarında seçilirlər. JuHİ rəhbər orqanlarının üzvləri birbaşa nümayəndələridirlər.

5.1.3.Keçirilməsi ilə bağlı bütün təşkilati məsələlər AM-in səlahiyyətinə aiddir. AM fəaliyyət göstərmədikdə bu səlahiyyətləri MNTK ilə birlikdə İH, onlar da fəaliyyət göstərmədikdə isə JuHİ Sədrinin qurduğu Təşkilat Komitəsi həyata keçirir.

5.1.4.Nümayəndələrin ən azı 2/3-si iştirak etdikdə səlahiyyətli sayılır. Qərarlar sadə səs çoxluğu ilə açıq və qapalı səsvermə yolu ilə qəbul edilir.

5.1.5.Səlahiyyətlərinə aşağıdakılar daxildir:

- JuHİ-ni təsis edir, onun fəaliyyətini dayandırır;
- 2/3 səs çoxluğu ilə JuHİ Nizamnaməsini qəbul edir, ona əlavə və dəyişikliklər edir;
- AM-in say tərkibini müəyyən edir və seçir, hesabatını dinləyir;
- İttifaqın fəaliyyətinə qiymət verir;
- JuHİ-nin Sədrini və Sədrin təqdimatı ilə onun Birinci Müavinini seçir, Sədrin hesabatını dinləyir və işinə qiymət verir;
- MNTK-nın say tərkibini müəyyən edir və seçir, hesabatını dinləyir, işinə qiymət verir;
- digər məsələləri həll edir.

**5.2.Ali Məclis**

5.2.1.Qurultaylararası dövrdə JuHİ-nin yüksək orqanıdır. Qurultayın səlahiyyətlərinə aid olan məsələlərdən başqa JuHİ-nin fəaliyyəti ilə bağlı bütün digər məsələlər barəsində qərarlar qəbul edir.

5.2.2.Dörd ayda bir dəfədən az olmayaraq toplanır. Toplantılar üzvlərinin ən azı 2/3-si iştirak etdikdə səlahiyyətli sayılır. JuHİ Sədrinin, İH-nin, MNTK-nın, AM sədrinin və AM üzvlərinin 1/3 hissəsinin təşəbbüsü ilə növbədənkənar toplantı keçirə bilər. Toplantının qərarları sadə səs çoxluğu ilə açıq və ya qapalı səsvermə yolu ilə qəbul edilir.

5.2.3.İşinə başçılıq AM sədri tərəfindən həyata keçirilir. Sədr AM üzvləri tərəfindən, onların öz sıralarından seçilir.

5.2.4.Səlahiyyətlərinə aşağıdakı məsələlər daxildir:

- AM sədrini, sədrin təqdimatı ilə onun müavinini və katibini seçir;
- Qurultay qərarlarının həyata keçirilməsini təmin edir;
- JuHİ-nin büdcəsini müzakirə və təsdiq edir;
- JuHİ Sədri tərəfindən bağlanmış sazişləri təsdiq edir;
- Qurultaya nümayəndəlik normasını müəyyən edir;
- JuHİ Sədrinin əmr və sərəncamlarına münasibət bildirir;
- qurulmuş ilk həmkarlar təşkilatlarını üzvlüyə qəbul edir və üzvlükdən çıxarır;
- müraciət və açıqlamalarla çıxış edir;
- bütün seçkili orqanların istefasını qəbul edir;
- JuHİ Sədrinin təqdimatı əsasında onun müavinlərini təsdiq edir;
- ciddi Nizamnamə pozuntusuna yol verildikdə və digər zəruri hallarda 2/3 səs çoxluğu ilə mərkəzi seçkili orqanların, JuHİ vəzifəli şəxslərinin səlahiyyətini dayandırır, qurultayaqədərki müddət üçün müvəqqəti seçkilər keçirir;
- 2/3 səs çoxluğu ilə növbədənkənar Qurultay çağırılması barədə qərar qəbul edir;
- JuHİ sədri tərəfindən formalaşdırılmış İH-nin say tərkibini təsdiq edir;
- müxtəlif daimi və müvəqqəti komissiyalar qurur;
- kütləvi informasiya vasitələri qurur, onların redaktorlarını təsdiq edir;
- qurultayqabağı təşkilati məsələləri həll etmək üçün müvafiq qərarlar qəbul edir;
- kommersiya, kooperativ və b. müəssisə, birlik və təşkilatların qurulması haqda qərar qəbul edir;
- öz səlahiyyətləri çərçivəsində JuHİ-nin fəaliyyətilə bağlı digər məsələləri həll edir.

5.2.5.İşini bu Nizamnamə və özü tərəfindən qəbul edilmiş reqlament əsasında qurur.

**5.3.JuHİ Sədri**

5.3.1.JuHİ-na ümumi başçılığı həyata keçirir. Qurultay tərəfindən seçilir və azad edilir.

5.3.2.Səlahiyyətləri aşağıdakılardır:

- JuHİ-ni mötəbər məclislərdə və görüşlərdə təmsil edir, onun adından çıxışlar edir, danışıqlar aparır;
- dövlət orqanları və ictimai birliklərlə əlaqələr qurur;
- JuHİ adından müxtəlif sazişlər, müqavilələr imzalayır, onları AM-in təsdiqinə verir;
- JuHİ adından müraciətlər, açıqlamalar yayır;
- öz başçılığı ilə İH-nin tərkibini formalaşdırıb AM-in təsdiqinə verir;
- müavinlərinin namizədliyini irəli sürür;
- JuHİ-nin fəaliyyəti ilə bağlı səlahiyyətlərindən doğan digər məsələləri həll edir.

**5.4.İdarə Heyəti**

5.4.1.JuHİ-nin cari işlərinin görülməsi məqsədi ilə JuHİ Sədrinin başçılığı ilə formalaşdırılaraq AM-də təsdiq edilir.

5.4.2.Toplantıları üzvlərin ən azı 2/3 hissəsinin iştirakı ilə iki həftədə bir dəfədən az olmayaraq keçirilir. Qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

5.4.3.Səlahiyyətlərinə aşağıdakı məsələlər daxildir:

- gündəlik operativ iş aparır, işin gedişi üçün məsuliyyət daşıyır;
- JuHİ Sədri yanında müxtəlif şöbələr qurur, təsdiq edir, onların fəaliyyətini istiqamətləndirir;
- büdcəni formalaşdırır;
- AM fəaliyyət göstərmədikdə MNTK ilə birlikdə Qurultayın keçirilməsi ilə bağlı təşkilati məsələləri həyata keçirir;
- JuHİ-nin nəzdində müxtəlif müəssisə, birlik, assosiasiya və b. qurur və AM-in təsdiqinə verir;
- digər səlahiyyətləri həyata keçirir.

### 5.5. Mərkəzi Nəzarət Təftiş Komissiyası

5.5.1.Say tərkibi Qurultay tərəfindən müəyyən edilir və seçilir.

5.5.2.Sədr və komissiya üzvlərindən ibarət tərkibdə fəaliyyət göstərir. Sədr komissiya üzvləri tərəfindən, onların öz sıralarından seçilir və ümumi işə başçılıq edir.

5.5.3.Ən azı ayda bir dəfə toplanır. Toplantılar üzvlərinin 2/3 hissəsi iştirak etdikdə səlahiyyətlidir. Qərarlar sadə səs çoxluğu ilə qəbul edilir.

5.5.4.Səlahiyyətləri aşağıdakılardır:

- JuHİ-nin bütün səviyyəli orqanlarının və üzvlərinin fəaliyyətinin Nizamnamə tələblərinə uyğunluğuna nəzarət edir, onların işini təftiş edir;
- üzvlük haqlarının pozulması haqqında şikayətlərə baxır, pozuntular aşkar etdikdə onların müzakirəsi üçün müvafiq orqan qarşısında məsələ qaldırır;
- AM-in növbədənkənar toplantısının çağırılmasını tələb edir;
- JuHİ-nin seçkili rəhbər orqanlarının toplantılarında məşvərətçi səslə iştirak edir;
- AM fəaliyyət göstərmədikdə İH-lə birlikdə Qurultayın keçirilməsilə bağlı təşkilati məsələləri həyata keçirir;
- JuHİ büdcəsinin xərclənməsinə nəzarət edir;
- JuHİ-nin istənilən səviyyəli vəzifəli şəxslərinə qarşı səlahiyyətləri çərçivəsində intizam tədbirləri tətbiq edir;
- özünün mülahizəsinə əsasən tərkibində dəyişiklik edir;
- səlahiyyətlərindən doğan digər məsələləri həll edir.

## 6.JuHİ-nin HÜQUQİ STATUSU VƏ MÜLKİYYƏTİ

6.1.JuHİ hüquqi şəxsdir. Onun möhürü, blankı, rəmzləri, bank hesabları, ştatlı işçiləri vardır.

6.2.JuHİ-nin mərkəzi orqanları Bakı şəhərində yerləşir.

6.3.JuHİ-nin mülkiyyəti bölünməzdir. Onun mülkiyyətinə binalar, avadanlıq, nəqliyyat vasitələri, mətbəələr, habelə Nizamnamə tələblərinin yerinə yetirilməsi üçün lazım olan digər əmlak daxildir.

6.4.JuHİ-nin mülkiyyəti aşağıdakı mənbələr hesabına formalaşır:

- üzvlük haqları;
- əmlakdan gələn gəlir;
- mətbu orqanlarından gələn gəlir;
- keçirdiyi müxtəlif tədbirlərdən əldə olunan gəlir;
- vətəndaşların, idarə, müəssisə və təşkilatların yardımı;
- qurduğu müəssisə, birlik, assosiasiyalar və b. gələn gəlir;
- qanunvericiliklə qadağan edilməyən digər fəaliyyət növlərindən gələn gəlir.

6.5.JuHİ-nin bank hesablarındakı pul vəsaiti büdcəyə uyğun xərclənir.

## 7.JuHİ-nin LƏĞVİ

7.1.JuHİ birləşdikdə, parçalandıqda, yenidən təşkil edildikdə Qurultay tərəfindən, faktiki olaraq fəaliyyət göstərmədikdə, habelə "Həmkarlar ittifaqları haqqında" qanunda göstərilən digər hallarda müvafiq qaydada ləğv edilir.

7.2.JuHİ-nin ləğvi haqqında Qurultayın qərarı nümayəndələrin 2/3 səs çoxluğu ilə qəbul edilir. Bu zaman JuHİ-nin əmlakının taleyi qanunvericiliyə uyğun həll edilir.

13 fevral 2000-ci il. Bakı şəhəri.